# TARİX FAKÜLTƏSİNİN

## 2021-2022-ci tədris ili üzrə

## HESABATI

| FAKÜLTƏNİN TARIXİ |
| --- |
| TARİX FAKÜLTƏSİNDƏ DƏRS DEMİŞ TANINMIŞ, GÖRKƏMLİ ELM XADİMLƏRİ |
| TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI |
| FAKÜLTƏNİN STRUKTURU |
| TƏDRİSİN TƏŞKİLİ |
| ELMİ TƏDQİQATLAR |
| TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN FƏALİYYƏTİ |
| ELMİ UĞURLAR VƏ TƏLTİFLƏR |
| BEYNƏLXALQ ƏMƏKDAŞLIQ |
| FAKÜLTƏNİN ÖLKƏDAXİLİ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ |
| SOSİAL FƏALİYYƏT |
| TARİX FAKÜLTƏSİ 44 GÜNLÜK MÜHARİBƏ DÖVRÜNDƏ |

# FAKÜLTƏNİN TARİXİ

1919-cu ilin sentyabr ayında təsis edilən və noyabr 15-də fəaliyyətə başlayan Tarix fakültəsi Bakı Dövlət Universitetinin yaşıdıdır.

1919-cu ildə Tarix-Filologiya fakültəsi adı ilə ilk addımlarını atmağa başlayan Tarix fakültəsi sonralar müxtəlif adlar altında (İctimai elmlər fakültəsi, Pedaqoji fakültə) fəaliyyətini davam etdirmiş və 1934-cü ildə müstəqil fakültəyə çevrilmişdir.

Fakültə təsis olunarkən 509 tələbə, 95 azad dinləyici (604 nəfər) ilə fəaliyyətə başlamış və bu gün Tarix fakültəsində 1899 tələbə təhsil alır.

Tarix fakültəsi fəaliyyət göstərdiyi 1919-2022-ci illərdə: Azərbaycanda Tarix elminin, mili ideologiyanın, milli mənlik şüurunun formalaşmasında və inkişafında müstəsna rol oynamış, milli mədəniyyətimizin inkişafına, milli ənənələrimizin qorunub saxlanılmasına, milli vətənpərvərlik ruhunun yüksəlməsinə güclü təkan vermiş, yüksək ixtisaslı tarixçi kadrları hazırlayan elmi mərkəzə çevrilmişdir.

# FAKÜLTƏNİN TARİXİ

Tarix fakültəsində ən dəyərli struktur dəyişikliyi 1941-ci ildə “Azərbaycan tarixi” kafedrasının yaradılması olmuşdur.
XX əsrin 70-80-ci illərində Tarix fakültəsinin inkişafında yeni mərhələ başlamışdır: yeni kafedralar, yeni elmi tədqiqat laboratoriyaları yaradılmışdır.
Müstəqillik illərində bütün sahələrdə olduğu kimi Tarix fakültənin fəaliyyətində, tarixçi kadrların hazırlanması sahəsində də keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulmuşdur.
Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə və hazırda respublikaya rəhbərlik edən Prezident İlham Əliyev tərəfindən son 17 ildə bütün sahələrdə olduğu kimi tarix elminin inkişafına da böyük qayğı və diqqət göstərilməkdədir.

# FAKÜLTƏNİN TARİXİ




1920-ci tədris ilində fakültədə 13 professor və 5 nəfər dosent fəaliyyət göstərirdisə bu gün 2022-ci tədris ilində Tarix fakültəsində 19 professor, 48 dosent, 9 baş müəllim, 5 müəllim fəaliyyət göstərir.

# TARİX FAKÜLTƏSİNDƏ DƏRS DEMİŞ TANINMIŞ, GÖRKƏMLİ ELM XADİMLƏRİ

Azərbaycanda tarix elminin formalaşmasında, inkişafında və tarixçi kadrların hazırlanmasında Tarix fakültəsinin professor-müəllim heyətinin əvəzsiz xidmətləri olmuşdur.
Xüsusilə, XX əsrin 20-30-cu illərdə dərs demiş görkəmli akademiklərin adlarını çəkmək istəyirəm: Vasili Bartold, Nikolay Maar, Aleksandr Makovelski, Sergey Oldenburq, İvan Meşaninov və d.
Həmçinin keçən əsrin 20-40-cı illərində Tarix fakültəsində dərs demiş tanınmış alimlərin adlarını qeyd etmək istəyirəm: professor Tağı Şahbazi, professor Əziz Qubaydullin, professor Yevgeniy Paxomov, professor Vəli Xuluflu, professor Əhməd Zəkizadə, professor İsaq Cəfərzadə, professor Boris Tixomirov və d.
Sonrakı illərdə Tarix fakültəsində fəaliyyət göstərmiş tanınmış alimlər: İsmayıl Hüseynov, Əlisöhbət Sumbatzadə, Əliövsət Quliyev, Zülfəli İbrahimov, Ədhəm Şahmalıyev, Məmməd Səlimov, Ə.Z.Dadaşlı, Yevgeniy Tokarjevski, Qəzənfər Mehdiyev, Məmməd Əfəndiyev,, Xəlil Əlimirzəyev, Məmməd Qazıyev, Miryusif Mirhadıyev, Yaqub Mahmudov, Əli Əliyev, Aslan Atakişiyev, Məhəmmədəli Hüseynov, Səfyar Musayev, Tofiq Vəliyev, Süleyman Əliyarov və s..

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**Heydər Əlirza oğlu Əliyev (1923-2003)**

Azərbaycanın görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Bakı Dövlət Universitetinin və xarici ölkələrin nüfuzlu universitetlərinin fəxri doktoru, Beynəlxalq Atatürk mükafatı laureatı, 1969-1982 və 1993-2003-cü illərdə Azərbaycan Dövlətinin başçısı, 1982-1987-ci illərdə SSR Nazirlər Soveti sədrinin birinci müavini, İKP MK Siyasi Bürosunun üzvü, 1991-1993-cü illərdə Naxçıvan MR Ali Sovetinin sədri. Müstəqil Azərbaycan Dövlətinin banisi və qurucusu, Azərbaycan xalqının Ümummilli lideri, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin məzunu

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**Heydər Hüseynov (1908-1950)**

Azərbaycan-sovet filosofu, ictimai xadim, elm təşkilatçısı, fəlsəfə elmləri doktoru, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, Stalin mükafatı laureatı. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl Marksizm - leninizmin əsasları, sonra Fəlsəfə kafedrasının müdiri olmuşdur.

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**İsmayıl Hüseynov**
**(1910-1969)**

Akademik, tarix elmləri doktoru adını alan ilk azərbaycanlı, 1941-1944 və 1958-1960-cı illərdə Azərbaycan EA Tarix İnstitutunun direktoru, 1960-1966-cı illərdə isə AEA İctimai Elmlər Bölməsinin akademik-katibi, 1949-cu ildə AEA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü, Azərbaycan SSR Ali Sovetinin «Fəxri fərmanı» ilə təltif olunmuş və «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş görkəmli tarixçi. 1928-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin hüquq şöbəsinə daxil olmuş və 1933-cü ildə təhsilini başa vurmuşdur.

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**Əlisöhbət Sumbatzadə (1907-1992)**

Tarix elmləri doktoru, AMEA-nın həqiqi üzvü, Azərbaycan SSR-nin (5-ci çağırış) deputatı və Rəyasət heyətinin üzvü,görkəmli Azərbaycan iqtisadçısı və tarixçisi. 1926-1930-cu illərdə isə , Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin tarix-etnologiya şöbəsində təhsil almışdır.

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**İqrar Əliyev**
**(1924-2004)**

Akademik.1945-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. 1978-2004-cü illərdə Azərbaycan EA Tarix İnstitutunun direktoru vəzifəsində işləmişdir. 1979-cu ildə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş, 2002-ci ildə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**Zülfəli İbrahimov (1910-1972)**

Azərbaycan SSR EA-nın müxbir üzvü. 1936-37-ci dərs ilindən isə Z.İbrahimov pedaqoji fəaliyyətlə məşğul olmağa başlamışdır. Azərbaycan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının təşkili də onun adı ilə bağlıdır. həmin kafedranın müdiri, Universitetin Tarix fakültəsinin dekanı və Azərbaycan SSR EA–nın Tarix institutunun direktoru vəzifələrində işləmişdir.

# TARİX FAKÜLTƏSİNİN GÖRKƏMLİ MƏZUNLARI



**Məhəmmədəli Hüseynov**
**(1922-1994)**

Azərbaycanlı alim, paleontoloq, Azərbaycan paleontologiyası məktəbinin banisi, arxeoloq. Tarix elmlər doktoru, professor, Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı, 1971-1994-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Daş dövrü arxeologiyası şöbəsinə rəhbərlik etmişdir. Məmmədəli Hüseynov 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində ali təhsil almışdır. O, eyni zamanda 1976-1993-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təşkil olunmuş Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri olmuşdur.

# FAKÜLTƏNİN STRUKTURU



# ŞTATDA OLAN FAKÜLTƏ HEYƏTI HAQQINDA MƏLUMAT (CƏMİ: 145)
## 2021/2022-ci tədris ili



# Fakültə əməkdaşlarının yaşa və cinsə görə nisbəti (cəmi: 145 nəfər)






## ETL əməkdaşları (cəmi 20 nəfər)



# Kafedra və elmi tədqiqat laboratoriyaları

- Kafedralar
  - Arxeologiya və Etnoqrafiya kafedrası
    - "Azərbaycanın maddi mədəniyyət tarixi" ETL
    - Arxeologiya və Etnoqrafiya muzeyi
  - Asiya və Afrika ölkələri tarixi kafedrası
  - Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası
  - Azərbaycan tarixi (humanitar fakültələr üzrə)
  - Azərbaycan tarixi (təbiət fakültələri üzrə)
    - "Dünya azərbaycanlıları: tarixi demoqrafiya" ETL
  - Qafqaz xalqları tarixi kafedrası
  - Qədim dünya və orta əsrlər tarixi kafedrası
  - Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası
  - Slavyan ölkələri tarixi kafedrası
  - Türk xalqları tarixi kafedrası

Tarix, metodika və dil mərkəzi

# Fakültənin kafedralar üzrə dərs yükü




| | Azərbaycan Hümanitar fakültələri üzrə | Azərbaycan tarixi təbiət fakültələri üzrə | Mənbəşünaslıq, tarixşünaslıq və metodika | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi | Arxealogiya və etnoqrafiya | Asiya və Afrika ölkələri | Qafqaz xalqları tarixi | Qədim dünya və orta əsrlər tarixi | Slavyan ölkələri tarixi | Türk xalqları tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| digər verib | | | 1016 | 120 | 120 | | | 60 | | |
| digər alıb | | | | | | 2089 | | | 408 | 245 |
| Saathesabı | 1748 | 827 | 3814 | 2047 | 545 | 607 | 3179 | 1239 | 94 | 645 |
| Əvəzçi | 750 | 253 | 731 | 0 | 388 | 253 | 592 | 261 | 515 | 334 |
| Ştat | 7356 | 8398 | 4485 | 5630 | 6393 | 6091 | 2006 | 4238 | 3973 | 2903 |
| Ümumi yük | 9854 | 9478 | 10046 | 7797 | 7446 | 6951 | 5777 | 5798 | 4180 | 3637 |

# Fakültənin kafedralar üzrə professor -müəllim heyəti və kənardan dəvət olunan saathesabı müəllimlər




| | Azərbaycan Tarixi humanitar fakültələr üzrə | Azərbaycan tarixi təbiət fakültələri üzrə | Mənbəşünaslıq, tarixşünaslıq və metodika | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi | Arxealogiya və etnoqrafiya | Asiya və Afrika ölkələri | Qafqaz xalqları tarixi | Qədim dünya və orta əsrlər tarixi | Slavyan ölkələri tarixi | Türk xalqları tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Saathesabı | 13 | 4 | 15 | 8 | 3 | 3 | 15 | 6 | 1 | 4 |
| Əvəzçi | 3 | 1 | 2 | 0 | 1 | 1 | 1 | 1 | 2 | 1 |
| 0,5 | 6 | 0 | 0 | 2 | 1 | 2 | 0 | 1 | 2 | 1 |
| Ştat | 10 | 15 | 6 | 6 | 10 | 7 | 3 | 6 | 6 | 5 |
| **Cəmi** | **32** | **20** | **23** | **16** | **15** | **13** | **19** | **14** | **11** | **11** |

# Fakültənin ştat, əvəzçi və saathesabı müəllimləri



# Tədrisin təşkili

## İxtisaslar və istiqamətlər



# Təhsilalanlar haqqında məlumat












# ÜOMG

| Tədris ili | İxtisas | Average of üomq | Max of üomq | Min of üomq |
|---|---|---|---|---|
| **2017/2018** | **Antropologiya** | **76.0** | **88.9** | **64.2** |
| | Regionşünaslıq (Amerika üzrə) | 75.1 | 90.9 | 56.1 |
| | Regionşünaslıq (Qafqaz üzrə) | 73.5 | 92.5 | 53.0 |
| | Tarix | 74.9 | 94.0 | 54.2 |
| | Tarix müəllimliyi | 73.1 | 90.3 | 54.8 |
| **2017/2018 Total** | | **74.1** | **94.0** | **53.0** |
| 2018/2019 | Antropologiya | 78.2 | 88.4 | 61.6 |
| | Regionşünaslıq (Amerika üzrə) | 76.1 | 88.5 | 61.5 |
| | Regionşünaslıq (Qafqaz üzrə) | 72.3 | 88.4 | 61.8 |
| | Tarix | 74.7 | 94.4 | 60.8 |
| | Tarix müəllimliyi | 79.3 | 95.3 | 62.0 |
| **2018/2019 Total** | | **76.1** | **95.3** | **60.8** |
| 2019/2020 | Antropologiya | 72.6 | 83.9 | 64.5 |
| | Regionşünaslıq (Amerika üzrə) | 77.3 | 94.9 | 64.4 |
| | Regionşünaslıq (Qafqaz üzrə) | 75.0 | 90.0 | 64.7 |
| | Tarix | 79.2 | 97.7 | 64.4 |
| | Tarix müəllimliyi | 80.6 | 93.3 | 68.1 |
| **2019/2020 Total** | | **78.3** | **97.7** | **64.4** |
| 2020/2021 | Antropologiya | 80.3 | 84.9 | 73.0 |
| | Regionşünaslıq (Amerika üzrə) | 80.0 | 93.2 | 65.8 |
| | Regionşünaslıq (Qafqaz üzrə) | 77.9 | 94.2 | 63.2 |
| | Tarix | 81.4 | 97.8 | 64.7 |
| | Tarix müəllimliyi | 81.9 | 94.7 | 66.2 |
| **2020/2021 Total** | | **80.9** | **97.8** | **63.2** |

# Təhsilalanlar haqqında məlumat – Bakalavriat (cəmi: 1805)
## 2021/2022-ci tədris ili




Xarici bakalavr tələbə

- 1 Kurs 2
- 2 kurs 3 cəmi 10
- 3 Kurs 2
- 4 kurs 3

# Təhsilalanlar haqqında məlumat – 185
# Magistratura (127) və doktrantura (58)




Xarici magistr

- 1 Kurs 1
- 2 kurs 4

# Magistratura







## Fəlsəfə doktoru




## Elmlər doktoru






# Magistratura- 4 ixtisas, 26 ixtisaslaşma

- Tarix
  - Azərbaycanın qədim və orta əsrlər tarixi,
  - Asiya və Afrika ölkələrinin tarixi,
  - Qədim dünya tarixi,
  - Arxeologiya və etnoqrafiya,
  - Etnologiya,
  - Avropa və Amerikanın yeni və ən yeni tarixi,
  - Türk dünyası tarixi,
  - Yaxın və Orta ġərqin tarixi,
  - Orta əsrlər tarixi,
  - Azərbaycanın yeni və ən yeni tarixi,
  - Azərbaycan tarixinin mənbəĢünaslığı və tarixĢünaslığı,
  - Slavyan ölkələri tarixi,
  - Qafqaz xalqlarının tarixi
- Tarix müəllimliyi
  - Tarix fənninin tədrisi metodikası və metodologiyası
- Regionşünaslıq
  - Regionşünaslıq (Amerika üzrə),
  - Regionşünaslıq (Qafqaz üzrə),
  - Ölkəşünaslıq (İtaliya üzrə),
  - Ölkəşünaslıq (Türkiyə üzrə),
  - Ölkəşünaslıq (Polşa üzrə),
  - Ölkəşünaslıq (Rusiya üzrə),
  - Ölkəşünaslıq (Ermənistan üzrə)
  - Ölkəşünaslıq (Gürcüstan üzrə)
  - Ölkəşünaslıq (Azərbaycan üzrə)
- Antropologiya
  - Mədəni antropologiya
  - Antropologiya

# Doktorantura və dissertantura - 8 ixtisas

- 5503.02 - Vətən tarixi
- 5502.01- Ümumi tarix
- 5509.01-Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları
- 5503.01-Ölkələr tarixi
- 5508.01-Tarixi coğrafiya
- 5101.01-Mədəni antropologiya
- 5507.01-Beynəlxalq münasibətlər
- 5102.01-Etnoqrafiya və etnologiya

# Tarix fakültəsində təhsilalanlar haqqında məlumat (cəmi: 1990)



## *2021-ci il ildə Tarix elminin prioritet istiqamətləri (kafedralar üzrə)*

| s/s | kafedra | Elmi-tədqiqat işinin adı |
|---|---|---|
| 1 | Arxeologiya və etnoqrafiya kafedrası | **Azərbaycanda arxeoloji-etnoqrafik tədqiqatların müasir inkişaf perspektivləri** |
| 2 | Asiya və Afrika ölkələri tarixi kafedrası | **Müasir dövrdə Yaxın Şərq və Şərqi Asiya ölkələri beynəlxalq münasibətlərdə** |
| 3 | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | **Avropa və Amerika ölkələrinin yeni və müasir tarixinin,beynəlxalq münasibətlər tarixinin mühüm hadisələrinin tədqiqi** |
| 4 | Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | **XIX əsrin ilk onilliklərindən XXI əsrin ilk onilliklərinədək Azərbaycan tarixinin əsas məsələləri** |
| 5 | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | **Ən qədim dövrlərdən XXI əsrin ilk onilliklərinədək Azərbaycan tarixinin əsas məsələləri** |
| 6 | Qafqaz xalqları tarixi kafedrası | **Müasir dövrdə Qafqazda yeni geosiyasi vəziyyətin tədqiqi** |
| 7 | Qədim dünya və orta əsrlər tarixi kafedrası | **Qədim Azərbaycanın Şərq ölkələri və antik dünya ilə əlaqələri**<br>**Orta əsrlərdə Avropa ölkələrinin qarşılıqlı ticarət, siyasi və mədəni əlaqələrində Azərbaycanın yeri və rolu** |
| 8 | Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | **Azərbaycanın orta çağ dövründən cağdaş dövrədək Vətən tarixşünaslığının problemlərinin tədqiqi**<br>**Təhsilin inkişafı üzrə Dövlət strategiyası və tarixin tədrisi metodikasında rolu** |
| 9 | Slavyan ölkələri tarixi kafedrası | **Slavyan ölkələri tarixinin (ən qədim zamanlardan günümüzədək) aktual problemləri** |
| 10 | Türk xalqları tarixi kafedrası | **Türk xalqları tarixinin qədim dövrlərdən günümüzə qədər aktual problemləri** |
| 11 | "Dünya azərbaycanlıları:tarixi-demoqrafiya" ETL-i | **Azərbaycan Respublikasının əhalisi (XX əsrin sonları – XXI əsrin ilk onillikləri), xaricdə yaşayan azərbaycanlılar (Özbəkistanda yaşayan azərbaycanlılar, İran İslam Respublikası və Cənubi Azərbaycan ərazisində yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti, "Dərbənd şəhəri XX-XXI əsrin ilk onilliklərində (tarixi-demoqrafik tədqiqat)"** |
| 12 | Azərbaycanın Maddi Mədəniyyət Tarixi ETL | **Qobustan arxeoloji kompleksində ovçuluq məşğuliyyəti və onun inkişaf mərhələləri. Qobustan arxeoloji tədqiqatlarda. Ovçuluğun ümumiləşdirilmiş tarixi icmalı. Qobustanın etnoqrafik tədqiqi. Qobustanın tarixi-xronoloji təsnifatının hazırlanması** |
| 13 | **Erməni araşdırmaları ETTM** | **XIX əsrin sonları və XX əsrin əvvəllərində erməni terroru** |

# ELMİ TƏDQİQATLAR

Hesabat dövründə Tarix fakültəsinin tarixçi, tarix müəllimliyi, regionşünaslıq (Qafqazşünaslıq və Amerikaşünaslıq) və Arxeologiya ixtisaslarının bakalavr pilləsi və magistr səviyyəsi üçün cəmi 3 dərslik, 13 dərs vəsaiti və 8 monoqrafiya, 2 kitab, 163 məqalə, ondan 130-u respublikada, 33-ü xaricdə nüfuzlu jurnallarda, 4-ü **Web of Science (Clarivate Analytics) məlumat bazasında indekslənmiş jurnallarda** olmaqla) dərc olunmuşdur. Fakültə əməkdaşları yerli bə beynəlxalq konfranslarda iştirak etmiş, bu məruzələr üzrə 29 tezis yerli, 41 tezis beynəlxalq konfrans materiallarında çap edilmişdir




Məqalə-163



| № | Kafedranın adı | Kafedrarının müdiri | Kafedranın tərkibi: Prof.- müəl. Heyəti(sayı) | Elm. dok | Fəl. dok | Professor | Dosent | Elmi nəticələr barədə məlumat: Məqalə: Respub. | Məqalə: Xaric | Tezis: Respubl. | Tezis: Beynəlx. | Monoqra-fiya,kitab | Dərslik, dərs vəsaiti | Proqram, Metod.göstə. | Müdafiə: Elm. dok. | Müdafiə: Elm. nam. | İxtiraların Sayı/sifariş |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 1 | Qədim dünya və orta əsrlər tarixi | AMEA-nın həq. üzvü, akad. Y.M.Mahmudov | 8/1 | 2 | 4 | 2 | 2 | 7 | 2 | 7 | 4 | 3/ | - | 2 | - | - | - |
| 2 | Asiya və Afrika ölkələri tarixi | t.e.n.,dos. İ.Q.Ağayev | 9/1 | 1 | 8 | 1 | 5 | 7 | 2 | 2 | 12 | - | 1/2 | - | 1 | - | - |
| 3 | Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi | t.e.d., dos. M.B.Fətəliyev | 8/1 | - | 7 | - | 4 | 3 | 2 | - | 10 | 1 | /3 | 1 | - | - | - |
| 4 | Türk xalqları tarixi | t.e.d.,prof. Ə.İ.Muxtarova | 7/1 | 3 | 3 | 3 | 3 | 5 | 2 | - | 4 | - | - | - | - | - | - |
| 5 | Qafqaz xalqları tarixi | t.e.d.,prof. İ.M.Hüseynova | 4/1 | 2 | 2 | 2 | 1 | 15 | - | 1 | - | 1/ | - | - | - | - | - |
| 6 | Slavyan ölkələri tarixi | müd.əv.,t.e.n.dos. A.H.Cəlilov | 10/1 | 2 | 6 | 2 | 4 | 10 | 2 | 3 | 5 | | 1 - | - | - | - | - |
| 7 | Arxeologiya və etnoqrafiya | t.ü.f.d.,dos. K.H.Məmmədov | 11/1 | 2 | 8 | 1 | 5 | 22 | 13 | 6 | 1 | 2/ | 1 /4 | - | - | - | - |
| 8 | Mənbəşünaslıq, tarixşünaslıq və metodika | t.e.d., prof. A.C.İskəndərov | 8/1 | 1 | 7 | 1 | 6 | 13 | 1 | 12 | 3 | 1/ | - | - | - | - | - |
| 9 | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) | t.e.n.,dos. M.Q.Abdullayev | 15/2 | 2 | 12 | 2 | 8 | 13 | 2 | | 2 | 2/ | /4 | 2 | | | |
| 10 | Azərbaycan tarixi (hum. fakültələri üzrə) | t.e.n., dos., A.Ə.Rzayev | 19/1 | 6 | 9 | 6 | 6 | 31 | 7 | 6 | 8 | /1 | - | | - | - | - |
| **Cəmi** | | | 101/12 | 21 | 67 | 18 | 47 | 130 | 33 | 29 | 41 | 8/2 | 3/13 | 3 | 1 | - | - |

# Konfranslar müqayisəli təhlil (2019-21)




**2019-ci ildə** Tarix fakültəsində 3 konfrans (ondan 1-i beynəlxalq, 2-i respublika, səviyyəli olmaqla), 1 elmi seminar, 1 tədbir keçirilmişdir.

**2020-ci ildə** Tarix fakültəsində 4 konfrans (ondan 1-i beynəlxalq, 1-i respublika, 2 - ümumuniversitet səviyyəli olmaqla), 2 elmi seminar, 3 elmi tədbir keçirilmişdir.

***2021-ci ildə*** Tarix fakültəsində 7 konfrans (ondan 4-i beynəlxalq, 3-i respublika olmaqla) elmi konfrans, 6 elmi seminar, 5 ustad dərsi, 3 elmi tədbir keçirilmiş, 1 elmi layihə üzrə kollektiv monoqrafiya nəşr olunmuşdur.

***Web of Science (Clarivate Analytics) məlumat bazasında indekslənmiş jurnallarda nəşr olunmuş məqalələr***

| s/s | Məqalə | jurnal | Müəllif | Link/İSSN |
|---|---|---|---|---|
| 1 | Şemseddin Sami Fraşirinin ictimai-siyasi ve edebi fealiyyeti hakkında | Turan Stratejik Araşdırmalar Merkezi, Uluslararası Bilimsel Hakemli Mevsimlil dergi, cilt 13, səh.30-35, sayı 51, Yaz-2021 | T.e.d., professor Sani Hacıyev | https://www.proquest.com/docview/2578206426 |
| 2 | Этнокультурные процессы в Западном Прикаспийском регионе в эпоху Великого переселения народов | International Scientific Journal Theoretical & Applied Science, 2021, 05 (97), pp. 380-385 Scopus, http://s-o-i.org/1.1/TAS-05-97-62https://dx.doi.org/10.15863/TAS | T.e.d., dosent Tarix Dostiyev | **http://s-o-i.org/1.1/TAS-05-97-2**https://dx.doi.org/10.15863/TAS **İSSN 2308-4944** |
| 3 | Посудное стекло средневекового города Шамкир раннеисламского периода | Поволжская археология, 2021, № 2, с. 18-31(Scopus, Web Science Group / Clarivate Analytics, DOI: https://doi.org/10.24852/pa2021.2.36.18.31) | T.e.d.. dosent Tarix Dostiyev | **https://drive.google.com/file/d/1PbFSWVbM0K0hTNd2d1ApUFa2ggMNxxCH/view2** |
| **4** | **I. DÜNYA SAVAŞI'NDA OSMANLI COĞRAFYASINA YÖNELİK RUS PLANLARI BAĞLAMINDA İSTANBUL VE SYKES-PİCOT ANLAŞMALARI** | **Tarih İncelemeleri Dergisi(Ankara) 01.07.2021, s.s. 287-316 DOI: 10.18513/egetid.974621** | **T.ü.f.d. Zərifə Nəzirli (həmmüəllif)** | **https://dergipark.org.tr/en/download/article-file/1892528** |

# Diğər nüfuzlu jurnallarda nəşr olunmuş məqalələr

| | | | | |
|---|---|---|---|---|
| 1 | **“Moon kult” on Ancient Monuments of Azerbaijan.** | **History Research (HISTORI). ISSN Print: 2376-6700; ISSN Onlin:2376-6719** | **Dosent İradə Avşarova** | **http://www.historyresearch.net** |
| 2 | Traces of the "Sun" belief in the tombs of the bronze age of Azerbaijan. //.. | Universidad y Sociedad [online]. 2021, vol.12, n.6, pp.278-281. Epub 02-Dic-2020. ISSN 2218-3620 /Universidad de Cienfuegos. Carretera a Rodas, Km 3 1/2. Cuatro Caminos. Cienfuegos. Cuba | Dosent İradə Avşarova | **http:// http://scielo.sld.cu/scielo.php?script=sci_serial&pid=2218-3620&lng=es&nrm=isoscielo.sld.cu/scielo.php?script=sci_serial&pid=2218--3620&lng=es&** |
| 1 | Proceedings of the 9th International Scientific and Practical Conference Scıence And Practıce:Implementatıon To Modern Socıety | Manchester, Great Brıtaın.18-19.04.2021. An Review Of Historical Events In The Works Of Nizami Ganjavi.p.534-538 | Professor Sevda Süleymanova | **https://interconf.top/documents/2021.04.18-19.pdf** |
| 4 | Proceedings of the 2nd ınternational scientific and practical conference experımental and theoretıcal research ın modern scıence | Kıshınev, Moldova.26-28.03.2021.p.276-280 | Professor Sevda Süleymanova | **https://interconf.top/documents/2021.03.26-28.pdf** |
| 5 | Strateji silahların məhdudlaşdırılması sahəsində Rusiya-ABŞ əməkdaşlığı | “Bilimsel Araştırmalar”. Ankara, Türkiyə, 2021 | Dosent Sitarə Mustafayeva | **https://elger-etm.com/jurnal/arxiv-jurnal/92blmsel-arastrmalar** |
| 6 | FACTORS DETERMINING THE ESTABLISHMENT OF THE ORGANIZATION OF THE ISLAMIC CONFERENCE | Scientifik Collection İnterconf Qlobal and regional aspects of sustainabledevelopment.4-5.05.2021.N 51,Copenhagen | T.ü.f.d İskəndərova Samudə | **Scientific Publishing Center «InterConf» E-mail: info@ interconf.top URL: https://www.interconf.top** |
| 7 | Soviet government's policy in the field of higher education in the Azerbaijan SSR (1920-1930) // The X International Scientific Symposium dedicated to the 880th anniversary of Nizami Ganjavi .“Science and Education: yesterday, today, tomorrow”. | 23 January 2021 Stockholm, Sweden, səh.259-262 | Sevda İsmayılova | **file///C:/Users/Giqabyte/Downloads/nizami-gncvi-sempozyum-2021-tam_compressed,pdf** |
| 8 | Qasim bəy Zakirin əsərlərində Qarabağin ermənil əşdirilməsi məsələsinin əksi // The XV International Scientific Symposium . “Intercultural Relations in the Modern World" Proceedings Book. | 26 June 2021 Kars / Turkey – Tehran / İslamic Republic of İran, səh.150-155 ) | Sevda İsmayılova | **file:///C:/Users/Giqabyte/Downloads/xv-symposium-pdf-e-book_pdf1%20(1).pdf** |
| 9 | Reflection of the historical of Azerbaijan in the XIX century in the üork “The unlucky young man” by Abdullahim bey Haqverdiyev”. | Numanities sceience current issues: İnteruniversity collection of Drohobyeh İvan Franko State Pedagogical University Young Scientists Rescareh Papers. Ukraine, İSSEDE 42.Volume 1.2021, s. 178-183 | Sevda İsmayılova | **https://doi.org/10.24919/2308-4863/42-1-23** |
| 10 | The eastern plan ”of Baku soviet in 1917-1918” | Turkiye, Amasya, 15 noyabr , 2021, s. | Xosqədəm İslam | **www.ataturk-kongresi-the 9$^{th}$-international-congress-on ataturk-12-15** |
| 11 | “The Caucasus and its neighbors-toward the future.” | Turkiye, Sivas, 17 sentyabr, 2021, | Xosqədəm İslam | **www.atam.gov.tr\nutuk\sivas-kongresi-aciliyor/** |
| 13 | **“To Whom belongs the Land? Confrontation in Karabakh: On the Origin of the Albanian Arsacids Dynasty”** | **Voice of the Publisher Norveç, March 12, 2021** | **Təhminə Aslanova Ramin Əlizadə** | **https//www/scirp.journal/paperinformation.aspx?paperid=107705)** |

*2021-ci ildə nəşr olunmuş dərslik və monoqrafiyalar (xaricdə)*

| Kafedra | Nəşr edilmiş dərslik, dərs vəsaiti, monoqrafiya |
|---|---|
| Qədim dünya və orta əslər tarixi kafedrası | Махмудов Я.М, Наджафли Г.Дж.  Игры великих держав по созданию армянского государства на территории Азербайджана. (Бишкек: «Улуу Тоолор», 2021, - 392 с.) |

# *2021-ci ildə nəşr olunmuş dərslik və monoqrafiyalar (respublikada)*

| s/s | Kafedra | Nəşr edilmiş dərslik, dərs vəsaiti, monoqrafiya |
|---|---|---|
| | Tarix fakültəsi | **Zəfər epopeyası, 2021, Bakı, Azərbaycan, "Azəri Poliqrafiya" nəşriyyatı, 2021, səh.600. 38 ç.v. (kollektiv monoqrafiya)** |
| | | |
| 1 | Arxeologiya və etnoqrafiya kafedrası | **1.Dostiyev Tarix. Arxeologiya. Dərslik. Bakı: "Elm və təhsil", 2021, 396 səh.**<br>**2.İsmayılzadə Qüdrət Yaxın-uzaq sələflərim. Bakı, Füyuzat, 2021, 284 səh** |
| 2 | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | **Arzu Məmmədova. Şəki: ən qədim zamanlardan günümüzədək. Layihə rəhbəri, elmi redaktor və ön sözün müəllifi Yaqub Mahmudov. Kollektiv monoqrafiya (həmmüəllif), Bakı, "Turxan", 2020, 708 səh.** |
| 3 | Qədim dünya və orta əslər tarixi kafedrası | **1. Yaqub Mahmudov. Şəki: ən qədim zamanlardan günümüzədək. Layihə rəhbəri, elmi redaktor və ön sözün müəllifi Yaqub Mahmudov. Kollektiv monoqrafiya (həmmüəllif), Bakı, "Turxan", 2020, 708 səh.**<br>**2. Evira Lətifova, Şəki: ən qədim zamanlardan günümüzədək. Layihə rəhbəri, elmi redaktor və ön sözün müəllifi Yaqub Mahmudov. Kollektiv monoqrafiya (həmmüəllif), Bakı, "Turxan", 2020, 708 səh.** |
| 4 | **Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi** | **T.ü.f.d. Hüseyn Hüseynli Türkiyə - NATO münasibətləri (1991-2016-cı illər)-Monoqrafiya, "Adiloğlu" MMC-nin mətbəəsi. Bakı, 2021. 232 səhifə.monoqrafiya**<br>**Dosent Baxışov Məmmədağa**<br>**1. Macarıstanın yeni və müasir tarixi. Dərs vəsaiti. Bakı, "Sabah", 2021**<br>**2. Amerikada istiqlaliyyət mübarizəsi. Dərs vəsaiti.( İskəndərova Samudə ilə həmmüəllif) Bakı, "Elm və təhsil", 2021**<br>**3. Brazilyanın yeni və müasir tarixi. Dərs vəsaiti. Bakı, "Elm və təhsil", 2021**<br>**4. Amerika ölkələrinin xarici siyasəti". Proqram. Bakı, 2021**<br>**T.ü.f.d. İskəndərova Samudə**<br>**1.Şimali Amerikada istiqlaliyyət mübarizəsi. Dərs vəsaiti (M.Ə.Baxışovla həmmüəlif). Bakı, 2021** |




***Hesabat dövründə Tarix fakültəsində 7 konfrans (ondan 4-i beynəlxalq, 3-i respublika olmaqla), 6 elmi seminar, 5 ustad dərsi, 3 elmi tədbir keçirilmiş, 1 elmi layihə üzrə kollektiv monoqrafiya nəşr olunmuşdur.***

## *2021-ci ildə Tarix fakültəsində 7 konfrans (ondan 4-i beynəlxalq, 3-ü respublika olmaqla) elmi konfrans keçirilmişdir.*

| N | Tədbirin adı | Tarix | Tədbirin yeri | Tədbirin forması | Tədbirin kateqoriyası | Rektorun iştirakı |
|---|---|---|---|---|---|---|
| 1 | Xocalı soyqırımının 29 – cu ildönümünə həsr olunmuş “Xocalı soyqırımının tarixi, siyasi və hüquqi müstəvidə təhlili” mövzusunda | 24.02.2021 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Hüquq fakültəsi Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi | beynəlxalq elmi konfrans | Microsoft Teams proqramı üzrə onlayn qaydada | bəli |
| 2 | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu” mövzusunda | 10-11.05.2020 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi | respublika elmi konfransı | Microsoft Teams proqramı üzrə onlayn qaydada | bəli |
| 3 | Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümünə həsr olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda” mövzusunda | 26-27.05.2020 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi | respublika elmi konfransı | Microsoft Teams proqramı üzrə onlayn qaydada | bəli |
| 4 | “Qarabağ Zəfəri - Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi” mövzusunda | 18-20.10.2020 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi | beynəlxalq elmi konfrans | Microsoft Teams proqramı üzrə onlayn qaydada | bəli |
| 5 | 8 noyabr – Zəfər gününə həsr edilmiş “Qarabağ zəfərinin hüquqi, tarixi və iqtisadi müstəvidə təhlili” mövzusunda | 5.11.2020 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Hüquq fakültəsi Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi | beynəlxalq elmi konfrans | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 6 | “Müstəqilliyin 30 illiyi: Tarixşünaslıq və mənbəşünaslıq elminin uğurları və perspektivlər” mövzusunda | 17-19.11.21 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | respublika elmi konfransı | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 7 | “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda | 21-22.12.21 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL | IV Beynəlxalq elmi konfransı | Hibrid formada | xeyr |

# *2021-ci ildə Tarix fakültəsində keçirilmiş 6 elmi seminar keçirilmişdir*

| N | Tədbirin adı | Tarix | Tədbirin yeri | Tədbirin forması | Tədbirin kateqoriyası | Rektorun iştirakı |
|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan tarixşünaslığının inkişaf istiqamətləri mövzusunda | 19.02.2021 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi | elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 2 | Sosialist sisteminin dagılması və Slavyan dünyası mövzusunda | 19.03.2021 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi | elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 3 | Ulu tariximizin sorağı ilə mövzusunda | 29.03.2021 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Arxeologiya və etnoqrafiya kafedrası | elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | bəli |
| 4 | Gərdizinin "Zeyn ül-Əxbar" əsəri və əsərdə türk tayfaları haqqında məlumatlar mövzusunda | 4.11.2021 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 5 | "Ali məktəblərdə milli azadlıq hərəkatı mövzusunun tədrisi təcrübəsi" mövzusunda | 14.12.21 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |
| 6 | "BDU-nun Tarix fakültəsində Avropa və Amerika ölkələrinin Yeni Dövr tarixinin tədqiqinin və tədrisinin aktual məsələləri" mövzusunda | 23.12.21 | Bakı Dövlət Universitetinin Tarix fakültəsi Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | Elmi seminar | Microsoft Teams proqramı üzrə onlayn qaydada | xeyr |

## *2021-ci ildə fakültədə nəşr olunan elmi jurnallar haqqında məlumat*

***"Tarix və onun problemləri"*** ***elmi, nəzəri, metodik*** jurnalı 1997-ci il nəşr edilir. Bu günə qədər 95 sayı nəşr edilib. 2021-ci ildə jurnalın növbəti 4 sayı (92, 93, 94, 95) nəşr edilib.

| İl, say | Cəmi | BDU/Tarix | Qeyd |
|---|---|---|---|
| **2021, №1 (92)** | 38 | 20 müəllif - 19 məqalə | 43 müəllif (5 məqalə həmmüəllif) |
| **2021, №2 (93)** | 46 | 20 müəllif - 19 məqalə | 49 müəllif (3 məqalə həmmüəllif) |
| **2021, №3 (94)** | 45 | 19 müəllif - 16 məqalə | 48 müəllif (1 məqalə həmmüəllif) |
| **2021, №4 (95)** | 45 | 18 müəllif - 17 məqalə | 54 müəllif (9 məqalə həmmüəllif) |
| **4 sayda CƏMİ:** | 174 | 77 müəllif - 71 məqalə | 194 müəllif (18 məqalə həmmüəllif) |

***Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası***) jurnalının 2021-ci ildə 4 nömrəsi nəşr olunub. Fakültə əməkdaşlarından:
2021-ci il, 1-ci nömrədə - 4 nəfərin məqaləsi
2-ci nömrədə - 8 nəfərin məqaləsi
4-cü nömrədə - 3 nəfərin məqaləsi nəşr olunub.
3-cü nömrədə fakültə əməkdaşlarının məqaləsi olmamışdır.
***Türk dünyası gənc tədqiqatçılar dərnəyinin araşdırmaları*** jurnalı Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir. Türk xalqları tarixi kafedrasının və Tarix fakültəsi Elmi Şurasının qərarları alınmaqla, ildə 1 sayı nəşr olunur. Jurnalda yalnız tələbə məqalələri nəşr edilir. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyası gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir. Jurnalın Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 30 illik yubileyinə həsr edilmiş 2021-ci tarixli 5-ci sayında cəmi 24 məqalə nəşr edilib (20 – BDU, 1 – Varşava Universiteti, 3 – AMEA tələbələrinin). Nəşr edilən 24 məqalədən 18-i bakalavr, 6-sı magistrant araşdırmasıdır. Tələbələrin elmi-tədqiqat işlərinə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, həmçinin Varşava Universitetinin Şərqşünaslıq fakültəsindən mütəxəssislər rəhbərlik etmişlər.
Jurnalın bütün sayları Tarix fakültəsinin saytında yerləşdirilib - http://history.mamedov.co/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

# *Dissertasiya Şurası*

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin nəzdində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Atestasiya Komissiyasının 28 dekabr 2019-cu il tarixli əmri ilə təsdiq edilmiş, 21 yanvar 2019-cu il F-13 nömrəli, 15 mart 2021-cu il F-78 nömrəli, 28 yanvar 2022-ci il tarixli F-11 nömrəli, əmrləri ilə əlavə və dəyişikliklər edilmiş tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən **ED.2.20 Dissertasiya Şurası fəaliyyət göstərir. Dissertasiya Şurasının 14 nəfər üzvü var (hər iki ixtisas üzrə 7 nəfər olmaqla), onlardan 11 nəfəri elmlər doktoru (1 nəfər – AMEA-dan, 1 nəfər – ADPU-dan, 1 nəfər – SDU-dən, 1 nəfər – ARPİİYSSA-dən), 3 nəfər fəlsəfə doktorudur.**

## ED.2.20 Dissertasiya Şurasının tərkibi:

**5502.01 - "Ümumi tarix" ixtisası üzrə**

Hüseynova Lalə Cavid qızı (sədr müavini) – Tarix elmləri doktoru
Əliyeva Sevinc İsrafil qızı – Tarix elmləri doktoru, dosent
Hətəmov Rövşən Qabil oğlu – Tarix üzrə fəlsəfə doktoru, dosent
Hüseynov Rauf Əlişiroviç - Tarix elmləri doktoru
Qasımlı Musa Cəfər oğlu - AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
Mustafayeva Sitarə Oruc qızı - Tarix üzrə fəlsəfə doktoru, dosent
Səlimov Şirxan Dadaş oğlu - Tarix elmləri doktoru, professor




**5503.02 – "Vətən tarixi" ixtisası üzrə**

Zeynalov İbrahim Xudaverdi oğlu (sədr) - Tarix elmləri doktoru, professor
Nəcəfova Kəmalə Telman qızı (elmi katib) - Tarix üzrə fəlsəfə doktoru, dosent
Baxşəliyev Fazil Eynulla oğlu - Tarix elmləri doktoru, dosent
Baxşəliyev Tahir Şamil oğlu - Tarix elmləri doktoru, professor
Hüseynova İradə Hüseynqulu qızı - Tarix elmləri doktoru, professor
Mehdiyeva Nisbət Canməmməd qızı - Tarix elmləri doktoru, professor
Muxtarova Əsməd İmamməmməd qızı - Tarix elmləri doktoru, professor

*Dissertasiya Şurasının fəaliyyəti və müdafiələrin vəziyyəti*

**Dissertasiya Şurasına işləri daxil olmuş 27 nəfər iddiaçıdan 1 nəfər müdafiə etmişdir, 2 nəfərəin müdafiə tarixi müəyyən olunmuşdur. Növbədə 24 nəfər var. Onlardan 1 nəfər öz xahişi ilə dissertasiya işini geri götürüb, 4 nəfərin dissertasiya işi ixtisas şifrəsi uyğun gəlmədiyi üçün AMEA-nın nəzdində DŞ-na göndərilib, 9 nəfərin dissertasiya işi Elmi seminardan keçib müdafiəyə təqdim olunmuşdur. 2 nəfər xarici ölkə vətəndaşıdır (Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası).**



## *Elmi seminar*

**Dissertasiya Şurasının 5502.01 - "Ümumi tarix" və 5503.02 – "Vətən tarixi" ixtisasları üzrə Elmi Seminarlarının 18 nəfər (hər birində 9 nəfər olmaqla) üzvü var. Onlardan 7 nəfəri elmlər doktorudurlar (1 nəfər – AMEA-dan, 1 nəfər – SDU-dən, 1 nəfər – ARPİİYSSA-dən).**

## Elmi seminarın fəaliyyəti:

**2021-ci ildə ED 2.20 Dissertasiya Şurasının 5502.01 - "Ümumi tarix" ixtisası üzrə Elmi seminarın 3 iclası keçirilib. 4 nəfər iddiaçının dissertasiya işi müzairə olunmuş və müdafiəyə buraxılmışdır.**

**2021-ci ildə 5503.02 – "Vətən tarixi" ixtisası üzrə Elmi seminarın 2 iclası keçirilib. 4 nəfər iddiaçının dissertasiya işi müzairə olunmuş və onlardan 2-si düzəlişə verilmiş, 2-si müdafiəyə buraxılmışdır.**

## Elmi Seminarlarının tərkibi



## *Tarix fakültəsinin beynəlxalq əlaqələri*

Tarix fakültəsi Qazaxıstan Respublikasının L.Qumilyov adına Milli Avrasiya Universitetinin Sosial Elmlər Fakültəsi, Türkmənistan Dövlət Universiteti (TDU) ilə əməkdaşlıq edir, Kazan Dövlət Universitetinin, Qırğızıstan Milli Universitetinin Tarix fakültələri, Türkiyə Cümhuriyyətinin Uludağ Universitetinin (Bursa) İqtisadi və İdari Bilimlər Fakültəsinin "Beynəlxalq münasibətlər" və "Siyasi tarix" bölümləri ilə konkret plan əsasında əməkdaşlıq üzrə danışıqlar aparılır.

31 may 2021-ci ildə Türkmənistan Dövlət Universitetinin (TDU) və Bakı Dövlət Universitetinin (BDU) birgə təşkilatçılığı ilə **"Махтумкули Фраги и духовно - культурные взаимосвязи между туркменским и азербайджанскими народами"** (Mahtumquli Firaki və türkmən və azərbaycan xalqları arasında mədəni - mənəvi əlaqələr) mövzusunda onlayn formatda universitetlərarası elmi konfrans keçirilmişdir. Türkmənistan Dövlət Universitetinin Elmi hissənin müdiri Murad Xodjakuliyevin moderatorluğu ilə keçirilən görüşdə Türkmən ədəbiyyatı kafedrasının müdiri, f.ü.f.d., dosent Amannepes Şixnepesov, Xarici ədəbiyyat kafedrasının müdiri f.ü.f.d., dosent Romanquli Mustaqov, Arxeologiya və etnoqrafiya kafedrasının baş müəllimi, t.ü.f.d. Bikə Divanqulıyeva, BDU-nun əməkdaşlarından Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Arxeologiya və etnoqrafiya kafedrasıının müəllimləri, t.e.d. Tarix Dostiyev, t.ü.f.d. Qanira Pirquliyeva iştirak etmişlər.

Tarix fakültəsinin

Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası və Slavyan ölkələri tarixi kafedraları Jeşuva Universitetinin Tarix İnsitutu ilə əməkdaşlıq edir.

Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası Ukrayna,"Kiyev-Moqilyanska Akademiyası" Milli Universitetinin humanitar elmlər fakültəsi ilə əməkdaşlıq edir.

Qədim dünya və orta əsrlər tarixi kafedrası Varşava Universiteti Şərqşünaslıq Fakültəsinin Türkologiya və Mərkəzi Asiya Xalqları kafedrasının nəzdində fəaliyyət göstərən Azərbaycansünaslıq Mərkəzi ilə əməkdaşlıq edir.

Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası Rusiya Federasiyası Sankt-Peterburq Dövlət Universiteti, postsovet məkanında beynəlxalq münasibətlər kafedrası, İsveç Uppsala Universiteti, ABŞ, Vaşinqton Universiteti, Türkiyə cümhuriyyəti Sakaqrya, Düzcə, Ağrı ilə Univesitetləri ilə əməkdaşlıq edir.

Asiya və Afrika ölkələri tarixi kafedrası Ankara Üniversitesi, TOBB ekonomi ve Teknoloji Üniversitesi, Gazi Üniversitesi, Hacı Bayram Veli Üniversitesi, Kahramanmaraş Sütçü İmam Üniversitesi, Ankara Yıldırım Beyazıt Üniversitesi, Hacettepe Üniversitesi, Ege Üniversitesi, Kapadokya Üniversitesi, Erzurum Atatürk Üniversiteti ilə əməkdaşlıq edir.

Türk xalqlarının tarixi kafedrası Türkiyənin Uludağ Universitetinin (Bursa) İqtisadi və İdari Bilimlər Fakültəsinin "Beynəlxalq münasibətlər" bölümü "Siyasi tarix" və Manisa Calal Bayar Universitetinin Fənn-Ədəbiyyat fakültəsinin Tarix bölümü Qədim dünya tarixi kafedrası ilə əməkdaşlığını uğurla davam etdirir.

"Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının dosenti Sevinc Qasımova Türkiyədə türk və rus dillərində nəşr olunan "Akademik Tarih ve Düşünce Dergisi"nin redaktorlarından biri, "Sınırsız Eğitim ve Araştırma Derneyi"nin Elmi Cəmiyyətinin üzvüdür.

*Ölkədaxili elmi əlaqələri*

Hesabat ilində Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Mingəçevir Dövlət Universiteti ilə "**1918-ci il mart soyqırımının tarixşünaslığı"** mövzusunda (**məruzəçi: professor Anar İsgəndərov, 28 oktyabr 2021 –ci il**) universitetlərarası, BDU-nun Qazax filialı ilə "**Azərbaycan tarixinin aktual elmi problemləri, onların tədqiqi və tədrisi məsələləri"** mövzusunda (**məruzəçi: dosent Kəmalə Nəcəfova, 18 mart 2021-ci il**) onlayn formatda birgə elmi tədbiləri olmuşdur.
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi fond və ekspozisiya şöbəsinin müdiri, **t.ü.f.d. Fərhad Quliyevin** "**Müasir arxeologiya elminin yeni çağrişlari (arxeometrik tədqiqatlar)"** mövzusunda (**29 aprel 2021-ci il**) BDU-nun tələbə, magistr və gənc tədqiqatçıları üçün onlayn formatda ustad dərsi təşkil olunmuşdur.
Bundan başqa, Tarix fakültəsi AMEA-nın Tarix İnstitutunun "Əhali tarixi və tarixi-demoqrafiya", "Qafqaz tarixi", "Azərbaycan-Rusiya əlaqələri tarixi", "Əliyevşünaslıq", "Ümumi tarix şöbəsi" şöbələri ilə

- AMEA-nın Qafqazşünaslıq İnstitutu ilə
- AMEA-nın Arxeologiya və etnoqrafiya İnstitutu ilə
- Bakı Dövlət Universitetinin Qazax filialı ilə
- Azərbaycan Dövlət Pedaqoji Unuversitetinin Tarix fakültəsi ilə
- Azərbaycan Dövlət Neft və Sənaye Unuversitetinin Tarix kafedrası ilə
- Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasının Tarix kafedrası ilə
- Gəncə Dövlət Universitetinin Tarix fakültəsi ilə
- Lənkəran Dövlət Universitetinin Tarix fakültəsi ilə
- Mingəçevir Dövlət Universitetinin Tarix fakültəsi ilə
- Bakı Musiqi Akademiyası ilə əməkdaşlıq edir.

## *TƏLƏBƏ ELMI CƏMIYYƏTIN FƏALIYYƏTI*

Tarix fakültəsin TEC – nin 2021-ci ildə nəzərdə tutlan tədbirlərindən "8 Mart-Beynəlxalq Qadınlar günü", "Novruz Bayramı", "31 Mart Soyqırımı", "Aprel döyüşləri – Vətən müharibəsinin başlanğıcı", "Kosmonavtika günü", Ümummilli Lider Heydər Əliyevin 98 illik yubileyi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümü ilə bağlı onlayn seminarlar keçirilmiş, tələbələr həmin seminarlarda elmi məruzə ilə çıxış etmişlər. Onlardan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu" (8 may 2021), Azərbaycan Xalq Cumhuriyyəti tarixi tədqiqiatlarda" (26-27 may 2021) mövzusunda keçirilən konfransların təşkilində də TEC üzvləri aktiv iştirak etmişlər.

03 May 2021-ci ildə Tarix fakultəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə ***"Heydər Əliyev şəxsiyyəti gənc tarixçilərin gözü ilə"*** adlı geniş səpkili diskussiya formatında keçirilmiş elmi diskussiya təşkil edilmişdir. Tədbirdə Tarix fakultəsinin Elmi İşlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Qafqaz Tarixi kafedrasının müdiri, professor İradə Hüseynova və TEC üzvləri məruzə ilə çıxış etmişlər.

04 aprel 2021-ci ildə Tarix fakultəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə ***"Aprel döyüşləri – Vətən müharibəsinin başlanğıcı"*** adlı tədbir keçirilib. Tədbirdə Tarix fakultəsinin Elmi İşlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Tarix fakultəsinin Tədris İşləri üzrə dekan müavini Bəxtiyar Nəbiyev, qazilər və TEC üzvləri məruzə ilə çıxış etmişlər.

08.12.2021-ci il tarixində Bakı Dövlət Universiteti Tarix fakültəsində TGT və TEC-in birgə təşkilatçılığı ilə **Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş *"Xilaskar"*** adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova ulu öndərin həyat və fəaliyyəti haqqında tələbələrə məlumat verdi. Daha sonra çıxış edən Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru İbrahim Zeynalov Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsindəki fəaliyyətindən, SSRİ M(KP) - də çalışdığı dövrlərə həmçinin ümumilikdə I və II hakimiyyəti dövründə Azərbaycanda baş verən siyasi və ictimai hadisələrə nəzər salıb. Daha sonra Bakı Dövlət Universiteti Humanitar məsələlər və Gənclər Siyasəti şöbəsinin müdiri Ramin Səmədov çıxışında ulu öndərin gənclər siyasətindən, gənclərə göstərdiyi qayğı və diqqətdən söz açıb. Daha sonra Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Nuru Məmmədov ulu öndərin I hakimiyyət dövründə gördüyü işlərdən, xalqa xidmətindən bəhs edib.

Daha sonra çıxış edən Tarix fakültəsi TEC sədri Ağamirzə Məmmədov Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsindən 2003-cü ilə qədər müasir Azərbaycanın keçdiyi yoldan bəhs etmiş, uğurlu siyasətinin öz varisi olan İlham Əliyev tərəfindən davam etdirilməsini qeyd edib. Tarix fakültəsi I kurs tələbəsi Həlilə Sadıqova Heydər Əliyevin həyat və fəaliyyətinə ümumilikdə toxunmuş, Azərbaycanda kadr hazırlığı, sosial layihələrin həyata keçirilməsi haqqında çıxış edib. Sonda TEC üzvlərinin hazırladığı "Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən" adlı slayd nümayiş etdirilib.

## **Elmi layihə: "Qarabağ Azərbaycandır! Zəfər epopeyası" kitabı** (layihə rəhbəri : t.e.d., professor İbrahim Zeynalov)

"Qarabağ Azərbaycandır! Zəfər epopeyası" kitabının layihə rəhbəri BDU-nun professoru İbrahim Zeynalov, elmi məsləhətçiləri akademik Yaqub Mahmudov, professor Anar İsgəndərov və professor Fəzail İbrahimlidir.

Kitab ali məktəblərdə tarix, siyasi və beynəlxalq münasibətlər fənlərindən dərs deyən müəllimlər, bakalavr səviyyəsində təhsil alan tələbələr, magistrlər, elmi işçilər və Azərbaycanın müasir tarixinə maraq göstərən oxucular üçün nəzərdə tutulub.

24 dekabr 2021-ci ildə Bakı Dövlət Universitetində (BDU) müstəqilliyimizin 30 illiyinə və Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunmuş "Qarabağ Azərbaycandır! Zəfər epopeyası" kitabının təqdimat mərasimi keçirilib. Təqdimat mərasimində BDU-nun rektoru Elçin Babayev, Tarix fakültəsinin professoru İbrahim Zeynalov, tədbirdə Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Anar İsgəndərov, Milli Məclisin üzvü, BDU-nun professoru Musa Qasımlı, Milli Məclisin üzvü Naqif Həmzəyev, AMEA-nın həqiqi üzvü, BDU-nun kafedra müdiri Yaqub Mahmudov, Tarix fakültəsinin tələbəsi, Vətən müharibəsi qazisi Gündüz Orucov çıxış ediblər.

